# Şərqi Zəngəzura möhtəşəm qayıdış



*44 gün davam edən Vətən müharibəsində qəhrəman Silahlı Qüvvələrimiz yüksək peşəkarlıq nümayiş etdirərək 30 il Ermənistanın işğalına məruz qalan əraziləri azad etdilər. Döyüş meydanında ordusu məğlub edilən, hərbi texnikaları sıradan çıxarılan, 11 min fərarisi olan Ermənistan kapitulyasiya aktına qol çəkərək qeyd-şərtsiz üzərinə öhdəliklər götürdü.*

Ən vacib öhdəlik isə müharibəyə son qoymaq və uzunmüddətli sülhün bərqərar olması prosesinə başlamaq idi. Lakin tarixi qələbədən ötən iki il yarım ərzində görünən odur ki, Ermənistan sülh və müharibə arasında girinc qalıb, qoltuğuna sığındığı ağaları imkan vermir ki, sülh müqaviləsini imzalasın, erməni iqtidarı öz meydançasında rüsvayçılıqla uduzan futbol komandasına daha çox bənzəyir, düşdükləri rəzil durumdan xilas olmağa cəsarəti çatmır. Ermənistanda ötən illər ərzində sülhü möhkəmləndirmək üçün heç bir iş görülməyib, əksinə, vaxtaşırı hərbi təxribatlar törədilir, şərti sərhəddə atəşkəs tez-tez pozulur, bölgədə gərginlik yaratmağa cəhd edilir. Ermənilər odla oynadıqlarının fərqində deyillər, unudurlar ki, yaşadıqları Ermənistanın bütün əraziləri İrəvan xanlığına və qədim Zəngəzur mahalına aid olub, həmin ərazilərdə qədim türk adları mövcuddur. Əslində, tarixi həqiqət də ondan ibarətdir ki, 1918-ci ilədək bu yerlərdə nə erməni dövləti, nə də Ermənistan mövcud olub. Bu ərazilər türklərin, daha dəqiq desək, azərbaycanlıların qədim torpaqları idi.

**(davamı 10-cu səhifədə)**

# Şərqi Zəngəzura möhtəşəm qayıdış

**(əvvəli 1-ci səhifədə)**

Ermənilər bu torpaqlara köçürüləndən sonra özləri haqqında rəvayətlər uydurublar, harda bir xristian məbədi varsa, dərhal həmin yerlərin ermənilərə aid olmasını iddia edirlər və bu rəzil hərəkət onu göstərir ki, xəstə, şovinist bir toplum saxta tarix və dünyada erməni mifi yaratmaqla məşğuldur. Uzun illər ərzində dünyanın inandığı həmin erməni mifini müzəffər Azərbaycan Ordusunun Qalib Ali Baş Komandanı İlham Əliyevin dəmir yumruğu yerdən-yerə vurdu, ermənilərin qorxaq və yalançı olduqları ortaya çıxdı.

Böyük Qələbədən sonra bölgədə yeni reallıq yaranıb, respublikamızda Qarabağın və Şərqi Zəngəzurun bərpasını, inkişafını nəzərdə tutan, keçmiş məcburi köçkünlərin doğma yurd yerlərinə ləyaqətli qayıdışını təmin edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla, fədakarlıqla icra olunur. Qələbədən dərhal sonra işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatlardan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsinə başlanıldı. Hazırda Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı tikinti-quruculuq işləri aparılır, ermənilərin viran etdiyi şəhərlər yenidən qurulur, kəndlər salınır, iri infrastruktur layihələr uğurla və sürətlə icra olunur. Eyni zamanda, Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilib və mütəxəssislərin hesablamalarına görə, bu bölgədə böyük enerji mənbələri var. İşğaldan azad edilən Cəbrayıl rayonunda 240 meqavatlıq yeni günəş stansiyasının tikintisi də nəzərdə tutulub. Xudafərin və Qız qalasında yaxın zamanlarda 140 meqavat elektrik enerjisi əldə ediləcək. Mütəxəssislərin fikirincə, Kəlbəcər və Laçında isə 10 min meqavata yaxın enerji potensialı mövcuddur. Bu istiqamətdə də bərpa-quruculuq işləri davam edir. Bərpaolunan enerjiyə aid birinci pilot layihə işğaldan azad edilən Zəngilan rayonunun Ağalı kəndində icra edildi. Üçtərəfli Bəyanatda qeyd edilən Zəngəzur dəhlizinin açılması ilə bağlı dövlətimizin başçısı qətiyyətlə bildirib ki, Ermənistan istəsə də, istəməsə də bu dəhliz açılacaq. Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Qarabağla və Şərqi Zəngəzurla, eyni zamanda Zəngəzur dəhlizinin açılması ilə bağlı siyasəti və işğaldan azad edilən ərazilərdə aparılan yenidənqurma işləri dünyanın diqqət mərkəzindədir və dövlətimizin başçısının həmin ərazilərdə gələcəklə bağlı fikirləri çox böyük maraqla qarşılanır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində region ölkələrinin inkişafı üçün yeni imkanlar açılıb. Beynəlxalq təhlilçilərin və siyasi ekspertlərin fikrincə, münaqişənin həlli regionun təhlükəsizliyi və kommersiya cəlbediciliyi baxımından çox böyük strateji əhəmiyyətə malikdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Məhz buna görə Azərbaycan-Zəngəzur dəhlizinin açılmasında qətiyyətlidir. Qeyd edək ki, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) Cəbrayıl və Zəngilan rayonlarında tikintisi yekunlaşıb və hazırda yolun digər ərazilərinin tikintisi davam etdirilir. Yolboyu 27 körpü nəzərdə tutulur ki, hazırda 12-nin tikintisi başa çatıb, daha 12 körpü isə tikilir. Yaxın vaxtlarda daha 3 körpünün inşasına başlanılacaq. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan, Cəbrayıl, Qubadlı, Laçın, Kəlbəcərdə ərazilərin bərpası çərçivəsində müxtəlif sosial və nəqliyyat obyektlərinin tikintisi, yol və kommunikasiya infrastrukturunun yaradılması davam etdirilir. Bu il ərzində Cəbrayıl, Qubadlı və Zəngilan rayonları üzrə bir neçə kəndin tikintisinə başlamaq nəzərdə tutulub. Cəbrayıl və Qubadlı rayonlarında daha çox kəndin layihələndirilməsi həyata keçiriləcək. Bütün bunlar mərhələli şəkildə olacaq və tikinti işləri isə azı ilyarım çəkəcək. Ümumiyyətlə, bu ərazilərin tikintisi və sakinlərin köçürülməsi 2022-2026-cı il Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək və minlərlə insan öz doğma yurd yerlərinə köçürüləcək. Şərqi Zəngəzura qayıdışa sayılı günlər qalıb. Bu ilin may ayında isə Laçın şəhəri öz doğma sakinlərini qəbul edəcək.

Laçında aparılan quruculuq işləri haqqında Prezident İlham Əliyev bildirib ki, Laçın şəhəri Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək, bir cənnətməkan olacaq. Biz azad edilmiş bütün torpaqlarda indi genişmiqyaslı quruculuq işləri aparır və bu işləri öz hesabımıza görürük və görəcəyik. **Laçın sakini, memar Azər Məmmədov** deyir ki, bir şeyə görə çox sevinirəm ki, Laçın şəhəri əvvəl olduğu kimi, bərpa olunur, yəni hər kəsin öz evi necədir, eləcə bərpa olunub veriləcək. Bu da bizim üçün xüsusilə önəmlidir. Laçının çıxışı, Həkəri çayına gedən istiqamətdə, gözəl mənzərəli yerdə Laçın məscidi inşa olunacaq. Füsunkar təbiəti, meşələri, dağları, çayları ilə Laçın torpağı cənnəti xatırladır. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən bərpa və yenidənqurma işləri nəticəsində Laçın nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Hazırda şəhərdə 4 minə yaxın işçi qüvvəsi gecə-gündüz növbəli çalışır. 30 illik işğaldan sonra Laçının görünüşü dəyişir, yeni və müasir bir görkəm alır. Qeyd edək ki, Laçının mərkəzində həyata keçirilən infrastruktur layihələr icra ediləndən sonra dağlar qoynundakı bu şəhər sözün əsl mənasında İsveçrədən də gözəl olacaq. Laçın şəhərində yenidənqurma işlərində Azərbaycanın bütün bölgələrindən olan insanlar çalışır və onların böyük əksəriyyəti laçınlılardır. **Laçın sakini Mahir Şahverdiyev** deyir ki, öz evini tikməkdən, öz yurdunu gözəlləşdirməkdən böyük xoşbəxtlik ola bilməz. Bu sevinci laçınlılara yaşatdığına görə dövlətimizin başçısı möhtərəm İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

**Əslən Laçından olan İxtiyar Quliyev** deyir ki, ailəmiz Xocalıda yaşayıb, orada böyümüşəm. Hazırda Goranboy rayonunda keçmiş məcburi köçkünlər üçün salınmış Ağcakənd qəsəbəsində məskunlaşmışıq. Laçın sakinləri buraya qayıdanda yeni və çox gözəl bir şəhər görəcəklər, hər cür şəraiti olan evlərdə yaşayacaqlar. Həqiqətən də evlər çox gözəldir. Laçında abadlıq işlərinin aparılmasında yaxından iştirak etdiyim üçün çox sevinirəm. Qeyd edək ki, Laçın şəhərinin mərkəzində gedən iş ümumi rayon üzrə həyata keçirilən layihələrin kiçik bir qismidir. Azərbaycan dövləti laçınlıların gözəl şəraitdə rahat yaşaması, şəhər və kəndlərin memarlıq nöqteyi-nəzərdən müasir, layiqli olması üçün həqiqətən də bütün resursları səfərbər edib. Bu isə onu deməyə əsas verir ki, tezliklə laçınlılar doğma yurda qayıdıb, rahat evlərində firavan ömür sürəcəklər. Qeyd edək ki, 2024-cü ildə Laçın hava limanının istifadəyə verilməsi nəzərdə tutulur. 2024-cü ilin oktyabr ayında isə Laçın şəhərinin 100 yaşı tamam olur. Laçınlılar deyirlər ki, bu xoşməramlı hadisələrin üst-üstə düşməsi tarixi bir hadisə olacaq. 100 il keçməsinə baxmayaraq, bizə, laçınlılara elə gəlir ki, biz də, Laçın da dünyaya yenidən gəlmişik və doğma şəhərimizin bir əsrlik yubileyini təntənə ilə, qürurla, şəhidlərimizə rəhmət diləyərək, qalib Ali Baş Komandanımız İlham Əliyevə minnətdarlıq hissi ilə qeyd edəcəyik.



**Salman ALIOĞLU,**
**"Respublika".**